# Azərbaycan qadınlarının elmə verdikləri töhfələr

## (Görkəmli alim, professor Aida İmanquliyevanın əziz xatirəsinə)

**Qloballaşma prosesinin dünyada çox sürətlə inkişaf etməsinə baxmayaraq, həyatımızın bütün sahələrində qadın intellektinə, qadın bacarığına həmişə ciddi ehtiyac var. Qadın peşəkarların fəaliyyəti cəmiyyətin dinamik və harmonik inkişafına təkan verir. Dünya qadın hərəkatının tarixi təcrübəsi sübut edir ki, ictimai sahədə qadın nə qədər fəal iştirak etsə, cəmiyyətin inkişafı da sürətlənər. Azərbaycanda da vəziyyət belədir. Müstəqilliyimizi bərpa etdikdən sonra ictimai və siyasi sektorda qadınların sayı daha da artmağa başladı. Bu, onların öz potensiallarını həyata keçirmələri və peşəkarlıq səviyyələrini yüksəltmələri üçün etibarlı bünövrə yaratdı. İndi Azərbaycan qadınları çətin sayılan neftçıxarma, kosmik tədqiqatlar, kibernetika, siyasi elmlər və s. sahələrdə uğurla çalışırlar.**

Respublikamızda elmin sürətlə inkişaf etməsi, güclü elmi potensialın üzə çıxması xalqımızın olduqca böyük nailiyyətidir. Azərbaycan elmində qadınların elmi tədqiqatçıların əksəriyyətini təşkil etməsi isə bizim daha böyük uğurumuzdur. Ümumiyyətlə, ölkəmizdə həyata keçirilən və əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət siyasətinin məntiqi nəticəsi kimi bütün sahələrdə qadınların fəaliyyəti üçün geniş imkanlar yaradılmışdır. Hörmətli Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında yeni uğurlu islahatlar həyata keçirilir və bu münasibət, qayğı qadınlarımızı elmi biliklərin yayılması sahəsində ardıcıl iş aparmağa, elmimizin inkişafına yeni töhfələr verməyə ruhlandırır. Bu gün Azərbaycanın elm xadimlərinin sırasında qadın alimlərimiz öz layiqli yerlərini tutublar: ölkəmizdə 5 akademik qadın, 14 müxbir üzv, 274 nəfər elmlər doktoru, 3010 fəlsəfə doktorları vardır. Yüksək intellektual potensiala malik olan bu qadın alimlərimizin hər biri öz sahəsində novator ideyaları, dəyərli araşdırmaları ilə Azərbaycan elmində dərin izlər qoyublar.

Tarixə nəzər salsaq, görərik ki, cəmiyyətin inkişafının bütün mərhələlərində qadınlar kişilərlə bərabər dövlət quruculuğunda, siyasi qərarların verilməsində fəal iştirak etmişlər. Ölkəmizdə milli qadın siyasəti tariximizin şanlı səhifəsi olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət statusu almışdır. Həmin dövrdə (1918-ci ildə) ilk dəfə olaraq müsəlman Şərqində qadına seçmək və seçilmək hüququnun verilməsi tarixi nailiyyət hesab olunurdu. Bununla da nəinki Şərqdə, hətta demokratiyanın beşiyi sayılan bir sıra Avropa ölkələrindən və ABŞ-dan əvvəl qadına cəmiyyət həyatında siyasi proseslərə qoşulmaq hüququ verilmişdir. Bütün müsəlman dünyasında qızlar üçün ilk dünyəvi məktəb (1901-ci ildə) 115 il bundan qabaq Bakıda yaradılmışdır. Bu məktəbləri açan Azərbaycanın xeyriyyəçi və maarifpərvər sahibkarları, ziyalılar başa düşürdülər ki, qızların təhsil alması çox vacibdir. Təhsilli qadın təhsilli millət, təhsilli nəsil deməkdir. Azərbaycanda qadınların təhsil alması, qadınlar arasında savadsızlığın aradan qaldırılması, qadın sağlamlığı, onların iqtisadi azadlığının təmin olunması məsələləri daim öz aktuallığını saxlamışdır. Zaman keçdikcə bu istiqamətlərdə iş aparılmışdır və bu gün ölkədə savadsız qadın yoxdur. Həmçinin 1911-ci ildə Xədicə Əlibəyovanın redaktorluğu ilə ilk dəfə qadın mətbuatı yarandı. "İşıq" qəzeti qadınların hüquqlarının qorunması, onların maariflənməsi üçün, bütün ziyalı vətəndaşları səfərbər edib. Azərbaycan qadını öz fəaliyyətini maarifçilik və xeyriyyəçilik ideyalarının yayılmasından başlayaraq, mədəni, dini, milli-mənəvi dəyər və ənənələri də nəzərə almaqla davam etdirir. Onların arasında görkəmli dövlət, elm, mədəniyyət və ictimai-siyasi xadimlər vardır. Qadınların cəmiyyətdəki yeri və rolunun mühüm göstəricisi onların müxtəlif dövlət vəzifələrini tutmaları və ümumiyyətlə, aktiv əmək fəaliyyəti ilə məşğul olmalarıdır.

Bu qadınlar bütün tarixi dövrlərdə fəal iştirak edərək, cəmiyyətimizin inkişaf etməsinə öz töhfələrini vermişlər. Tarixin istənilən anında bizim örnək kimi qəbul etdiyimiz qadınlar olub və indi də vardır. Onlardan bir neçəsinin adlarını qeyd etmək olar. Məsələn, ilk qadın pedaqoq Mədinə Qiyasbəyli, ilk dramaturq Səkinə Axundzadə. Ağabacı Rzayeva həm Azərbaycanda, həm də bütün Şərqdə peşəkar musiqi təhsilini almış ilk qadın-bəstəkardır. Onun ardınca digər istedadlı xanımlar Ədilə Hüseynzadə, Hökümə Nəcəfova, Şəfiqə Axundova bəstəkarlıq sahəsinə gəliblər. Şərqdə ilk opera yazan bəstəkar qadın Şəfiqə Axundova, ilk xanım opera müğənnisi Şövkət Məmmədova, balet sahəsində ilk qaranquş olan Qəmər Almaszadə, ilk peşəkar rəssam Maral Rəhmanzadə, ilk qadın heykəltəraş Zivər Məmmədova, ilk həkim-ginekoloq Ədilə Şaxtaxtinskaya. İlk kinoaktrisa, ilk xanım neft mühəndisi və ilk xanım kimyaçı akademik İzzət Orucova bu sahələrin hər üçündə ilkə imza atıb. Cəfər Cabbarlının cəhdlərindən sonra "Sevil" filmində eyniadlı obrazı oynamaqla ilk kinoaktrisa statusunu qazanıb. İlk qadın akademik—Validə Tutayuq biologiya sahəsində ilk qadın elmlər doktoru, professordur. 1968-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilərək böyük ilkə imza atıb. Məhz akademiyanın həqiqi üzvü seçildikdən sonra, nəhayət, Azərbaycan elminin də qadın akademiki olub. Azərbaycanın ilk qadın akademiki seçilən bu xanım sonradan bir çox ilklərə imza atıb. Ən əsası isə ondan sonra qadın elmi kadrlar irəli çəkilib. İlk qadın nazirimiz xarici işlər naziri olan Tahirə Tahirova olub. O, həm də neft sənayesi üzrə ali təhsil alan ilk azərbaycanlı qadın-mütəxəssis idi. Azərbaycanda ilk dəfə qadınlar arasında riyaziyyat üzrə elmlər doktoru adını almaq Tamilla Nəsirovaya nəsib olub. İlk uşaq pediatrı Adilə Namazova beynəlxalq aləmdə tanınan pediatr-kardioloqlardan biridir. İlk qadın oftalmoloq Zərifə Əliyeva Azərbaycanda oftalmologiya sahəsində həm də ilk akademik olmuşdur. Onun səyi və təşəbbüsü ilə ölkədə ilk dəfə peşəkar göz patologiyası laboratoriyaları yaradılmışdı.

Həmin sırada elmimizin fəxri, tanınmış şərqşünas, professor Aida xanım İmanquliyevanın adını xüsusi qeyd etmək lazımdır. İstedadlı ərəbşünas alim bütün ömrünü elmi yaradıcılığa həsr edərək şərqşünaslığın inkişafına öz layiqli töhfələrini vermişdir. Aida xanım elə ziyalılardandır ki, öz fəaliyyəti ilə təkcə ölkə, region çərçivəsinə sığmamış, dünya miqyasında şöhrət qazanmışdır. Onun tədqiqatlarında milli-mənəvi dəyərlər sistemi bəşərilik kontekstində təhlil olunur. Bu isə mədəniyyətlər və sivilizasiyalararası problemlərin oxşar və fərqli cəhətlərinin araşdırılması üçün vacib məsələlərdən biridir. Qeyd etmək lazımdır ki, onun araşdırmalarında ayrı-ayrı mədəniyyətlərdə qadına münasibət və qadın hüquqları mövzusu xüsusi yer tutur. Məhz bu baxımdan onun əsərləri Azərbaycan genderşünaslığı üçün qiymətli bir vəsaitdir.

Aida xanımın tədqiqatlarında ziyalı bir xanımın Vətənə övlad təəssübkeşliyi hiss olunur. O, hər bir məqaləsində, hər bir tərcüməsində əsl vətəndaşdır. Əsərlərində həyatın gerçəkliyi, cəmiyyətin, insanların real vəziyyəti, mənəvi zənginlik həmişə ön plandadır. Onun çoxsaylı elmi əsərləri—3 monoqrafiya, "Mixail Nüaymə" və "Qələmlər birliyi", "Cübran Xəlil Cübran", "Yeni ərəb ədəbiyyatının korifeyləri", 70-dən artıq elmi məqaləsi ədəbiyyatımızın inciləridir. Aida xanım yalnız yaradıcılığı ilə deyil, həm pedaqoji fəaliyyəti, həm də təşkilatçılıq və rəhbərlik bacarığı ilə seçilirdi. O, həmişə öz dərin elmi biliyini gənc alim və aspirantlarla bölüşür, əlindən gələn köməyi onlardan əsirgəmirdi.

Bir sözlə, Aida İmanquliyevanın elmi yaradıcılığı ilə yaxından tanış olduqda, onun Qərb-Şərq mədəniyyətlərini, ümumiyyətlə, dünyada mövcud olan fəlsəfi, ədəbi, ictimai-siyasi fikir sistemlərini, ideya axınlarını, onların mənşə və mahiyyətini, tətbiq səviyyələrini çox dərindən bildiyi məlum olur. Mənsub olduğu nəslin nüfuzundan əsla istifadə etməyərək bu yolu öz əməyi ilə qət etmişdi. Bu gün onun şərqşünaslıq elmi üçün yetişdirdiyi onlarca tələbəsi və saysız-hesabsız xeyirxah əməlləri yadigar qalır.

Aida İmanquliyeva çox zərif, kövrək bir insan, sədaqətli dost, həddindən artıq qayğıkeş və diqqətli bir xanım idi. Nə qədər gərgin iş rejimi ilə çalışsa da, özündə Azərbaycan qadınlarının ən nəcib keyfiyyətlərini cəmləşdirən Aida İmanquliyeva xanımlığını ömrünün sonunadək qoruyub saxlaya bilmişdi. O hər şeydən əvvəl öz ailəsinin qayğısını çəkən fədakar qadın, ana idi. Aida xanım, həmçinin, müasir Azərbaycan elmində və cəmiyyətində özünəməxsus yer tutan Nərgiz xanımı və Mehriban xanımı yetişdirib. Onlar vətənpərvər və xeyirxah ziyalılar kimi mənsub olduqları nəslin gözəl ənənələrini yaşadaraq ölkəmizin ictimai-siyasi həyatında xüsusi fəaliyyətləri ilə fərqlənirlər. Aida xanım sevimli nəvələrinə də vaxt tapar, onların qayğısını, nazını çəkərdi. Bir məsələni xüsusilə vurğulamaq istəyirəm ki, müasir dövrdə ölkəmizin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban Əliyeva özünün həm ictimai fəaliyyəti, həm də elmi yaradıcılığı ilə Azərbaycan qadınlarına həmişə nümunə olmuşdur. Onun təşəbbüsü və dəstəyi ilə yalnız Azərbaycanda deyil, Amerikada, Avropanın bir çox ölkələrində, Müstəqil Dövlətlər Birliyi respublikalarında, müsəlman ölkələrində bir sıra sosial, elm və təhsil, İKT, mədəniyyət sahələrində layihələr həyata keçirilir. Azərbaycan mədəniyyətinin, musiqisinin, incəsənətinin, ədəbiyyatının, tarixinin dünyada tanınmasında Mehriban xanım Əliyevanın rolu danılmazdır. Məhz bir çox ölkələrin birinci xanımları onun fəaliyyətindən yararlanır, təcrübəsindən istifadə edirlər. O, Azərbaycan qadın hərəkatının lideri kimi dövlətimizin tərəqqisi naminə geniş fəaliyyət göstərir. Əlbəttə, bu, bizim üçün fəxrdir. Bu qadınların adı elmə, mədəniyyətə, incəsənətə və idmana verdikləri töhfələrə görə dünyanın məşhur alim qadınlarının adları ilə yanaşı çəkilir.

Hər bir dövlətin qüdrəti onun ziyalı potensialı ilə ölçülür. Hər bir xalqı isə müasir dünyaya inteqrasiya uğrunda apardığı yarışda qalib çıxaran onun elmi, zəkası, ziyalısıdır. Azərbaycanda buna qadir olan ziyalı qüvvəsi var. Müxtəlif sahədə çalışan qadınlar öz səmərəli fəaliyyətləri, ciddi axtarışları ilə elmimizin şöhrətini dünyaya yayırlar. Bu günün gənc tədqiqatçıları onların elmi irsini, zəngin təcrübələrini həvəslə öyrənirlər. Əgər insan xatırlanırsa, deməli, yaşayır. Qoyub getdiyi xeyirxah əməllərində, onu sevənlərin, dəyərləndirənlərin qəlbində əbədi iz qoyur. Bu əbədiyyəti Aida xanım hələ sağlığında qazanmışdı.

Öz növbəmizdə, biz Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi olaraq bu istiqamət üzrə bir sıra layihələri həyata keçirmək təşəbbüsü ilə çıxış edirik. Məşhur kimyaçı-alim, akademik İzzət xanım Orucovanın və görkəmli şərqşünas alim Aida xanım İmanquliyevanın xatirələrinə həsr olunmuş gənc alimlərin elmi əsərlərinin müsabiqəsi buna misaldır. Eyni zamanda, ictimai xadim, tanınmış oftalmoloq Zərifə xanım Əliyevanın xatirəsinə həsr olunmuş "Qələbəyə doğru" uşaqlar arasında intellektual bilik oyunu keçirilir. Ümid edirik ki, belə müsabiqələr, bilik yarışmaları elmi fəaliyyətlə məşğul olan gənclərimiz üçün yaxşı stimuldur. Həmçinin bu, demokratik cəmiyyətin daha uğurlu gələcəyi üçün vacib şərtlərdən biridir.

***Müasir Azərbaycan qadını ana olmaqla yanaşı, həm də bacarıqlı siyasətçi, iş adamı, dövlət məmuru, xalqın inanıb səs verdiyi deputatdır. Bu fəallıq, malik olduğumuz tarixi ənənələrlə yanaşı, ölkəmizdə həyata keçirilən gender siyasətinin mahiyyətindən, onlara cəmiyyətin tamhüquqlu üzvü kimi bütün imkanlardan bərabər istifadə üçün zəruri şəraitin yaradılmasından irəli gəlir. Azərbaycan qadını hər zaman olduğu kimi, bu gün də dövlətin dəstəyini hiss edərək, özünün fəallığı ilə cəmiyyətdə bərabərhüquqlu mövqeyə nail olmağı bacarır. İnanırıq ki, Azərbaycanın alim qadınlarının fəallığı gündən-günə daha da artacaq, ölkənin ictimai, sosial-iqtisadi, mədəni, mənəvi həyatında onların rolu əhəmiyyətli dərəcədə yüksələcəkdir.***



**Hicran HÜSEYNOVA,**
**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, siyasi elmlər doktoru, professor.**